Azərbaycan Dövlət İqtisad Universitetinin

rektoru cənab Ədalət Muradova

Hörmətli Ədalət müəllim!

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) yaradılmasının 90 illiyi münasibətilə Sizi və ali məktəbin professor-müəllim və tələbə heyətini səmimi qəlbdən təbrik edirəm.

Bu gün ölkədə bir çox sahələrdə olduğu, kimi təhsil sahəsində də ciddi islahatlar həyata keçirilir, təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan universitetləri təhsilin səviyyəsinin yüksəldilməsi, yeni təhsil standartlarının hazırlanması, bu sahədə beynəlxalq standartların tətbiqi, rəqabətədavamlı təhsil sisteminin qurulması istiqamətində ciddi uğurlar əldə etməkdədir. Bu ali təhsil müəssisələri sırasında UNEC-in özünəməxsus yeri vardır. Azərbaycan Dövlət İqtisad Universiteti nəinki ölkənin, bütünlüklə Cənubi Qafqazın ən nüfuzlu ali təhsil müəssisələri sırasında, yarandığı gündən respublikamızda iqtisad elminin inkişafında və iqtisadçı kadrların hazırlanmasında müstəsna rol oynamışdır.

UNEC-in məzunu olan peşəkar iqtisadçıların cəmiyyət həyatının müxtəlif sahələrində, strateji idarəetmə istiqamətində səmərəli fəaliyyəti Azərbaycanın dayanıqlı inkişafına olduqca mühüm töhfədir. Yüksək bilik və bacarığa, intellektual potensiala malik olan kadrlar, eyni zamanda, bilik iqtisadiyyatı və informasiya cəmiyyəti şəraitində biznes menecmenti kimi yeni sahənin inkişafında çox fəal rol oynayırlar. Dünya miqyasında rəqabət qabiliyyətli ali təhsil müəssisələri sırasında yer alan UNEC-in reytiniqinin davamlı olaraq artması da sadalananların qanunauyğun nəticəsi və real ifadəsidir.

Universitetin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, tədris korpusları müasir tələblər səviyyəsində qurulub. Tədris prosesi və kadr hazırlığını Amerika və Avropa təhsil sisteminə uyğun quran UNEC bu gün regionda iqtisad elmini dərindən öyrədən fundamental tədris mərkəzinə çevrilib.

Əminik ki, gələcəkdə də UNEC kollektivi ölkəmizdə sənaye, ticarət, maliyyə, statistika, vergi sistemi, marketinq, menecment və digər ixtisaslar üzrə kadr hazırlığı işinə mühüm töhfə verməklə daha böyük uğurlara imza atacaq.

Sizi və rəhbərlik etdiyiniz qocaman təhsil ocağının bütün müəllim və tələbə heyətini Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) yaradılmasının 90 illik yubileyi münasibəti ilə bir daha təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram!

***Hörmətlə,***

***Milli Məclisin deputatı Vahid Əhmədov***